

Doğma, canım-varlığım qədər
sevdiyim Azərbaycanım
mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 227 (21.379)

19 noyabr 2015-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Noyabrın 17-də Parisdə UNESCO Baş Konfransının 38-ci sessiyasının Liderlər Forumu keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı, UNESCO-nun xoşməramlı səfiri Mehriban Əliyeva forumda iştirak ediblər.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva UNESCO Baş Konfransının 38-ci sessiyasının Liderlər Forumunda iştirak etmək üçün təşkilatın mənzil-qərargahına gəliblər.

Əvvəlcə Prezident İlham Əliyev UNESCO-nun qonaq kitabına ürək sözlərini yazıb.

Azərbaycan Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın UNESCO-nun sabiq baş direktoru Koişiro Matsuura ilə qısa söhbətləri olub.

Dövlətimizin başçısı forumda çıxış edib.

Forumdan sonra Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva UNESCO-nun baş direktoru İrina Bokova ilə görüşüblər.

Daha sonra Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva UNESCO-nun mənzil-qərargahında təşkilatın İcra Şurasının zalı və nümayəndə heyətlərinin salonu ilə tanış olublar.




## Şahbuz şəhərində Bayraq Meydanı istifadəyə verilmişdir





Noyabrın 18-də Şahbuz şəhərində Bayraq Meydanı istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə çıxış edərək demişdir: Hər bir dövləti digərlərindən fərqləndirən rəmzlər – bayraq, gerb, orden, pul nişanı və sair atributlar mövcuddur. Bunların içərisində bayraq mühüm yer tutur. Çünki bayraq dövlətlərin müstəqillik və suverenlik rəmzidir. Üçrəngli bayrağımızın ali dəyərindən bəhs edən ümummilli liderimiz Heydər Əliyev demişdir: ***“Başımız üstündə dalğalanan bayrağımız türk ruhunun təntənəsini dünyaya nümayiş etdirir”.***





Ali Məclisin Sədri demişdir: Üçrəngli bayrağımızın dövlətçilik rəmzi kimi yenidən yüksəldilməsi siyasi tariximizdə ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. 1990-cı il noyabrın 17-də ulu öndərin sədrliyi ilə Naxçıvan Muxtar Respublikasının ali qanunverici orqanında “Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri haqqında” tarixi Qərar qəbul olunmuş və Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi təsis edilmişdir. Ulu öndərin siyasi kursunu bütün sahələrdə uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyev də Azərbaycanın dövlət rəmzlərini və atributlarını daim uca tutur. Bakı şəhərində dünyanın ən hündür bayrağının dalğalanması, ölkəmizin bölgələrində də bayraq meydanlarının yaradılması bu siyasətin nəticəsidir.

Qeyd olunmuşdur ki, Naxçıvan Muxtar Respublikasında da dövlət rəmzlərinə hörmətlə yanaşılır. Ötən il Naxçıvan şəhərində Dövlət Bayrağı Meydanı və Muzeyi istifadəyə verilmiş, hər il noyabrın 17-nin Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı Günü kimi qeyd edilməsi qərara alınmışdır. Həmçinin bu sahədə aparılan elmi araşdırmaların nəticəsi olaraq Rusiya arxivlərindən Naxçıvan xanlığının dövlət və döyüş bayraqları aşkara çıxarılaraq Dövlət Bayrağı Muzeyinə təqdim olunmuşdur.

Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki, ***Dövlət Bayrağına dərin ehtiram hisslərinin aşılanması cəmiyyətdə vətənpərvərlik ruhunun möhkəmləndirilməsi işinə xidmət edir.*** Bu baxımdan Dövlət Bayrağının məna və məzmunu gənclərə düzgün izah edilməlidir. Təhsil müəssisələri və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu, Gənclər və İdman Nazirliyi dövlət rəmzlərinin təbliği sahəsində sistemli tədbirlər görməlidirlər. Bayraq xalqın varlığının, mövcudluğunun sübutu, dövlət qurmaq və ona sahib çıxmaq iradəsinin əsasıdır. Bayrağa sevgi vətənə sevgidir, xalqa sevgidir, dövlətçiliyə sevgidir. Hər birimizdə böyük iftixar hissi doğurur ki, bu gün xalqımız üçrəngli bayrağımızın altında bir məqsəd və amal uğrunda – müstəqil Azərbaycan naminə birləşmişdir!

Ali Məclisin Sədri tədbir iştirakçılarına Azərbaycan naminə fəaliyyətdə uğurlar arzulamış, Şahbuz şəhərində Bayraq Meydanının istifadəyə verilməsi münasibətilə təbrik etmiş, çıxışını Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Dövlət Bayrağı Meydanının açılış tədbirində səsləndirdiyi fikirlərlə tamamlamışdır: ***“Bayrağımız qürur mənbəyimizdir. Bu gün Azərbaycanın hər bir yerində Dövlət Bayrağı dalğalanır. Azərbaycan ərazi bütövlüyünü bərpa edəndən sonra milli Dövlət Bayrağımız bu gün hələ də işğal altında olan torpaqlarda qaldırılacaqdır. O günü biz hər an öz işimizlə yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq”.***

Məktəbli Səma Xəlilli şair Asim Yadigarın “Azərbaycan bayrağı” şeirini bədii qiraət etmişdir:

Seyr etməkdən doymuram
Türkün qədim rəngini.
Özündə cəm etmisən
Yurdumun ahəngini –
Azərbaycan bayrağı!

Sən ey mavi göylərin
Üçrəngli göy qurşağı.
Uğrunda can verərəm
Sən ucalan torpağın –
Azərbaycan bayrağı!

Sən canlıdan canlısan
Nəfəsin var, səsin var!
Dünyanın hər yerindən
Görünmək qüdrətin var –
Azərbaycan bayrağı!

Kölgəndən qorxanları
Yandırdı için-için.
Ulu HEYDƏR ucaltdı
Səni – yaşatmaq üçün
Azərbaycan bayrağı!

Ardı 2-ci səhifədə

Sonra Ali Məclisin Sədri qurğunu işə salmış, alqış sədaları altında üçrəngli Dövlət Bayrağımız yüksəlmişdir.

Ali Məclisin Sədri Bayraq Meydanında yaradılan şəraitlə tanış olmuşdur. Məlumat verilmişdir ki, meydandakı bayraq dirəyinin hündürlüyü postamentlə birlikdə 50 metrdir. Burada dalğalanan bayrağın uzunluğu 16, eni isə 8 metrdir. Səkkizguşəli ulduz formasındakı postament eyni quruluşa malik sütunlarla əhatə olunmuşdur.

Milli ornamentlərin əks olunduğu memarlıq elementləri ilə dizayn edilmiş Bayraq Meydanında müasir işıqlandırma sistemləri quraşdırılmış, gülkarlıqlar salınmış, oturacaqlar qoyulmuşdur. Həmçinin meydanın ətrafında da geniş abadlıq işləri görülmüş, 4 hektar ərazidə meyvə bağı salınmışdır.

Bayraq Meydanı ilə tanışlıqdan sonra sakinlərlə görüşən Ali Məclisin Sədri demişdir: Şahbuzda geniş quruculuq işləri həyata keçirilmiş, rayon mərkəzi inkişaf edərək qəsəbədən şəhərə çevrilmişdir. Bu gün istifadəyə verilən Bayraq Meydanı da aparılan quruculuq tədbirlərinin davamıdır. Bayraq o yerdə yüksəlir ki, orada ölkənin adı uca tutulur. Ölkənin adını ucaldanlar isə təhsilli, vətənpərvər, dövlətinə və xalqına sədaqət ruhunda böyüyən gənclərdir. Ona görə də hər bir ailədə gənclərə dövlət rəmzlərinə və atributlarına hörmət hissi aşılanmalı, Bayraq Meydanında məktəblilərin iştirakı ilə müxtəlif tədbirlər keçirilməli, onlara bayrağın mənası, müqəddəsliyi izah olunmalıdır. Gənclər isə yaxşı təhsil alaraq gələcəkdə öz əməlləri ilə bayrağımızın ucalığını qorumalıdırlar.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

## Tədqiqat qruplarının yığıncağı keçirilmişdir

***AMEA Naxçıvan Bölməsində “Gülüstan türbəsi” və “Əlincəqala” tədqiqat qruplarının yığıncağı keçirilmişdir. Yığıncağı AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev açmışdır.***

Bildirilmişdir ki, muxtar respublikamızın ərazisində qədim və orta əsrlər dövründə yaradılmış çoxlu maddi-mədəniyyət nümunələrinin, o cümlədən memarlıq abidələrinin bir hissəsi yarandığı vaxtdan keçən müddət ərzində baş verən təbii fəlakətlər, müharibələr zamanı dağılmış, bir qismi isə zəmanəmizədək aşınmış, yarıuçuq vəziyyətdə gəlib çatmışdır.

Son illərdə bu abidələrdən bir qismi bərpa olunmuş, bəzilərində isə hazırda abadlıq-bərpa işləri aparılmaqdadır. Bu abidələr sırasında Gülüstan türbəsi və Əlincəqala da vardır. Ötən müddət ərzində bu abidələrdə xeyli iş görüldüyünü diqqətə çatdıran İsmayıl Hacıyev qarşıda duran vəzifələrdən də danışmış və diqqətə çatdırmışdır ki, aparılan tədqiqatların nəticələrindən ibarət kitablar hazırlanması nəzərdə tutulmuşdur.

“Gülüstan türbəsi” tədqiqat qrupunun rəhbəri, AMEA-nın müxbir üzvü Hacıfəxrəddin Səfərli bildirmişdir ki, Culfa şəhərinin yaxınlığında qırmızı tuf daşından inşa edilən Gülüstan türbəsi orta əsr Azərbaycan memarlıq abidələri içərisində özünəməxsus yer tutur. Orta əsr mənbələrində bəzən “Kəsik günbəz” kimi xatırlanan, memarlıq-konstruktiv quruluşuna görə Naxçıvanın, bütövlükdə Azərbaycanın türbətipli digər memarlıq abidələrindən fərqlənən bu türbə Sovet hakimiyyəti illərində Araz çayı boyunca çəkilən sərhəd xəttinin arxasında qaldığı üçün baxımsız vəziyyətə düşmüş, bərpa edilməmiş, əhalinin onun yanına getməsinə icazə verilməmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 7 oktyabr 2015-ci ildə imzaladığı “Gülüstan türbəsinin bərpası və tədqiq olunması haqqında” Sərəncamına əsasən, türbənin bərpası və tədqiqi istiqamətində işlər sürətlə davam etdirilir.

“Əlincəqala” tədqiqat qrupunun rəhbəri, AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev çıxışında bildirmişdir ki, Naxçıvan Muxtar Respublikasında xalqımızın qədim mədəniyyətinin, qəhrəmanlıq və mübarizə tarixinin izlərini özündə yaşadan qala və istehkamların bərpasına xüsusi diqqət yetirilir. Əlincəqala tarixi abidəsində Azərbaycan tarixinin şanlı səhifələri yazılmışdır. Bu qala Naxçıvanın əyilməzlik simvoludur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 11 fevral tarixli Sərəncamına əsasən, “Əlincəqala” tarixi abidəsində bərpa işlərinin aparılması muxtar respublikada tarixi abidələrə göstərilən diqqətin nəticəsidir.

Əlincəqalada aparılan tədqiqatlar barədə ətraflı məlumat verən Vəli Baxşəliyev bildirmişdir ki, bərpa işləri zamanı Əlincəqalanın zirvəsinə yol çəkilmiş, gediş-gəliş xeyli asanlaşdırılmışdır. Əlincəqaladakı qədim yaşayış evləri, təsərrüfat binaları, qala divarları, mühafizə yerləri, səngər və bürclər, su hovuzları bütün incəlikləri ilə tədqiq olunmuş, onların forması müəyyənləşdirilmiş və tarixi görkəmi saxlanılaraq bərpa edilmişdir. İnşaat texnikası və planlaşma-məkan quruluşuna görə Naxçıvan memarlıq məktəbinin izlərini özündə əks etdirən qalanın şərq və qərb darvazaları da bərpa edilərək əvvəlki görkəminə qaytarılmışdır.

Tədqiqat qruplarının üzvlərindən AMEA-nın müxbir üzvü Qadir Qədirzadə və Qadir Əliyev bu abidələrdə aparılacaq tədqiqat işlərindən danışmışlar.

**Xəbərlər şöbəsi**

*Azərbaycan xalqının ümummilli lideri, görkəmli dövlət xadimi Heydər Əliyev ölkənin və xalqın taleyində, hərtərəfli tərəqqisində, davamlı uğurlar qazanmasında təhsilin xüsusi rolunu, böyük əhəmiyyətini həmişə yüksək dəyərləndirmişdir. Dahi rəhbərimiz deyirdi:* ***“Hər bir dövlət əgər istəyirsə ki, öz ölkəsinin inkişafını təmin etsin, öz millətinin elmini, mədəniyyətini dünya standartlarına çatdırsın, o mütləq hər şeydən çox təhsilə fikir verməlidir, təhsilin inkişafına səy göstərməlidir, təhsil üçün bütün imkanları yaratmalıdır”.***

## Təhsilin inkişafında yeni mərhələ

*Elm, ali və orta ixtisas təhsili müəssisələrinin elmi dərəcəli əməkdaşlarının ayda bir dəfə ümumtəhsil məktəblərində nümunəvi dərs keçmələri tədrisdə yeni istiqamət kimi dəyərləndirilir*

Ulu öndər Heydər Əliyev daim təhsilə strateji sahə kimi baxmış, Vətənin, xalqın tərəqqisində onun roluna yüksək qiymət vermişdir. Müdrik rəhbər Azərbaycan təhsilinin inkişafı naminə son dərəcə böyük işlər görmüş, yeni nəsillərin hərtərəfli biliyə, mükəmməl dünyagörüşə malik vətəndaşlar kimi yetişməsi naminə möhtəşəm tədbirləri müvəffəqiyyətlə reallaşdırmışdır.

Müstəqil Azərbaycanda, onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında ümummilli liderimiz Heydər Əliyevin siyasi kursu bütün istiqamətlərdə uğurla davam etdirilir, o cümlədən təhsilin inkişafına ardıcıl və hərtərəfli qayğı göstərilir, qazanılan nailiyyətlərin həcmi və əhatəsi ildən-ilə daha da artır.

Muxtar respublikada təhsil müəssisələrinin maddi-texniki bazasının daha da möhkəmləndirilməsi, müasir standartlar əsasında yenidən qurulması, yüksəkixtisaslı mütəxəssislərlə təminatı istiqamətində sistemli işlər görülmüşdür. Təhsil ocaqları üçün binalar tikilmiş, onlar kompüterlərlə, elektron lövhələrlə, internetlə, müasir tədris avadanlıqları ilə təmin olunmuşdur. Məktəbəqədər və məktəbdənkənar tədris müəssisələrində də sistemli quruculuq tədbirləri həyata keçirilmiş, həmçinin yeni texniki-peşə məktəbləri yaradılmışdır. Muxtar respublikada fəaliyyət göstərən orta ixtisas, ali təhsil müəssisələri üçün yeni korpusların tikilməsi, onlarda ən müasir informasiya-kommunikasiya vasitələrinin tətbiqi sahəsində də böyük işlər görülmüşdür. Sağlamlıq imkanları məhdud olan uşaqların cəmiyyətə inteqrasiyası, onların normal təhsil alması üçün Distant Tədris Mərkəzinin istifadəyə verilməsi də bu baxımdan xüsusi önəm daşıyır.

“Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 20 iyun 2014-cü il tarixli Sərəncamının icrası istiqamətində görülən hərtərəfli, sistemli işlər də böyük əhəmiyyətə malikdir. Azərbaycan tarixi və mədəniyyəti ilə əlaqədar fənlərin şagirdlərə daha yaxşı tədrisi üçün muxtar respublikada fəaliyyət göstərən müvafiq muzeylərlə orta məktəblər arasında virtual əlaqələrin qurulması bu baxımdan mühüm faydalar verməkdədir. Heydər Əliyev Muzeyində, “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində, digər muzeylərdə, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzində müxtəlif tədris müəssisələrinin şagird və tələbələri üçün açıq dərslərin keçilməsi də təlimdə əyaniliyə xidmət edən qiymətli faktorlar sırasındadır.

Bütün digər sahələrlə yanaşı, təhsil sektorunda da qazanılmış mühüm nailiyyətlər, hərtərəfli yüksəliş muxtar respublikada son illər həyata keçirilən uğurlu siyasətin məntiqi nəticəsidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin ardıcıl və hərtərəfli qayğısı, möhtəşəm tərəqqiyə yönələn müdrik siyasəti sayəsində ulu diyarımızda hər gün, hər ay, hər il özünün mühüm uğurları ilə səciyyələnir. İnkişafın yeni mərhələsinin ortaya çıxardığı təşəbbüslər, həyata keçirilən konsepsiyalar bütün istiqamətlərdə, o cümlədən təhsil sahəsində də böyük nailiyyətlərin qazanılmasını təmin edir.

Bu baxımdan “Naxçıvan Muxtar Respublikasının elm, ali və orta ixtisas təhsili müəssisələri ilə ümumtəhsil məktəbləri arasında əlaqələrin təşkili haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 14 mart 2015-ci il tarixli Sərəncamı çox böyük əhəmiyyətə malikdir. Sərəncamda qeyd olunduğu kimi: *“Naxçıvan Muxtar Respublikasında təhsilin inkişafı sahəsində ardıcıl tədbirlər həyata keçirilir, təhsil müəssisələrinin maddi-texniki bazası möhkəmləndirilir. Müasir informasiya-kommunikasiya texnologiyaları ilə təmin olunmuş məktəblərdə distant və interaktiv təhsilin təşkilinə, elektron vasitələrdən istifadəyə üstünlük verilir. Təhsilə göstərilən dövlət qayğısı muxtar respublikada elmi potensialı da gücləndirmiş, elm, ali və orta ixtisas təhsili müəssisələrində yüksəkixtisaslı professor-müəllim heyəti formalaşmışdır”.*

Bütün bunlar nəzərə alınmaqla sərəncamda bir vəzifə olaraq qarşıya qoyulmuşdur ki, Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin, ali və orta ixtisas təhsili müəssisələrinin professor və müəllim heyətinin iştirakı ilə muxtar respublikanın ümumtəhsil məktəblərində ayda bir dəfə nümunəvi dərslər təşkil olunsun. Ötən müddət ərzində bu istiqamətdə görülən işlər, həyata keçirilən tədbirlər həmin sərəncamın hərtərəfli faydalarını əyani şəkildə nümayiş etdirməkdədir.

Ümumtəhsil məktəblərində qazanılan biliklərin mahiyyətini, mündəricəsini yüksək qiymətləndirən ulu öndər Heydər Əliyev hər bir insanın həyat mövqeyinin formalaşmasında, cəmiyyətdə öz yerini tutmasında orta təhsilin çox böyük əhəmiyyət daşıdığını vurğulayaraq deyirdi: ***“İnsan təhsilinin əsasını orta məktəbdə alır ... Əgər onun fundamental, köklü orta təhsili varsa, o, cəmiyyətdə özünə yer tapacaq, çalışacaq, ... cəmiyyətimizin şüurlu üzvü olacaqdır”.*** Haqqında danışılan sərəncam da məhz orta məktəblərdə şagirdlərin daha yaxşı hazırlanması, biliklərə daha dərindən yiyələnməsi kimi mühüm məqsədlərə yönəlmişdir.

Həmin sərəncam muxtar respublikanın yuxarıda adıçəkilən qurumları ilə ümumtəhsil məktəbləri arasında qarşılıqlı əlaqələrin yeni əsaslar üzərində təşkilini təmin etmişdir. Akademiya sistemində, ali və orta ixtisas təhsili müəssisələrində çalışan elmi dərəcəli mütəxəssislərin potensial imkanlarından ümumtəhsil məktəblərində səmərəli istifadə özünün praktik əhəmiyyətini geniş şəkildə göstərməkdədir.

Müxtəlif ixtisaslar üzrə elmi dərəcəyə malik çoxsaylı kadrların – elmlər doktorlarının və fəlsəfə doktorlarının məhz vaxtilə təhsil aldıqları, məzunu olduqları ümumtəhsil məktəblərində ayda bir dəfə nümunəvi dərs keçməsi məktəb-məzun əlaqələrinə də uğurla xidmət göstərir. Hər bir şagird bir zamanlar onun kimi parta arxasında oturub müəllimlərdən dərs alan, indi isə alim kimi elmi, pedaqoji fəaliyyətlə məşğul olan yüksəkixtisaslı mütəxəssislə canlı ünsiyyətdən çox şey əxz edir, daha yaxşı oxumağa həvəslənir, onların bir qismində elmi tədqiqata maraq da oyanır. Bu dərslərin şagirdlərin peşəyönümü işinə, ixtisas seçiminə müsbət təsiri də danılmazdır.

Öz növbəsində, hər bir elm adamının məzunu olduğu ümumtəhsil məktəbində ayda bir dəfə sinfə girərək dərs aparması, həmçinin məktəbin pedaqoji heyəti, o cümlədən müvafiq fənn müəllimləri ilə söhbətləri, fikir mübadiləsi də faydalı olub, elmin son nailiyyətlərinin orta məktəblərə daha dərindən nüfuz etməsi baxımından da əhəmiyyətlidir.

Məsələnin digər bir mühüm tərəfi də var. Hazırda orta məktəblərdə də geniş islahatlar aparılır, yeni təhsil standartları tətbiq olunur. Akademiya, yaxud ali və orta ixtisas təhsili sistemində çalışan alimlər üçün ümumtəhsil məktəblərində bilavasitə tədrislə məşğul olmaq onlara həmin islahatlarla daha yaxından tanışlıq imkanı qazandırır.

Bəllidir ki, ali məktəblərin pedaqoji ixtisaslarında müvafiq metodiki fənlər də tədris olunur. Məsələn, Azərbaycan dili və ədəbiyyatı müəllimliyi ixtisasında orta məktəbdə Azərbaycan dilinin, ədəbiyyatın tədrisi metodikası, Kimya müəllimliyi ixtisasında orta məktəbdə kimyanın tədrisi metodikası və sair fənlər öyrədilir. Bu kimi fənlərin tədrisi bilavasitə orta məktəb proqramları ilə bağlı olduğundan uyğun müəllimlər üçün həmin sərəncam əlavə pedaqoji və metodiki imkanlar yaradır. Ali məktəblərin metodist müəllimləri üçün bu əlaqələr tələbələrin pedaqoji təcrübəsinin təşkilini optimallaşdırmaq baxımından da gərəklidir. Pedaqoji, metodiki, psixoloji və digər uyğun mövzularda tədqiqat aparan alimlər üçün də ümumtəhsil məktəbləri ilə əlaqələr əlavə material verir.

Ümumiyyətlə, sərəncamın icrası həm şagirdlər, həm orta məktəb müəllimləri, həm də nümunəvi dərslər aparan alimlər üçün çox faydalıdır. Bu məqamda ulu öndərimiz Heydər Əliyevin fikirlərini xatırlatmaq yerinə düşər: ***“Məktəb elə bir prosesdir, orqanizmdir ki, burada hamı – şagird də, tələbə də, müəllim də, bütün kollektiv də inkişafdadır”.***

Orta məktəblərdə nümunəvi dərslərin təşkili yeni, gərəkli və davamlı bir tədbir olmaqla, bütövlükdə, təhsildəki sistemliliyin, ardıcıllığın möhkəmlənməsi, qarşılıqlı əlaqələrin, təcrübə mübadiləsinin daha da dərinləşməsi, yeni nəsillərin hərtərəfli hazırlığı vəzifəsinə layiqincə xidmət göstərir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qeyd etdiyi kimi: ***“Təhsilin yenilikçi təcrübələr əsasında təşkili imkanları genişdir. Son vaxtlar muxtar respublikanın bəzi ümumtəhsil məktəblərində elm və ali təhsil müəssisələrinin elmi dərəcəli əməkdaşlarının nümunəvi dərsləri keçirilir. Tədrisin bu cür təşkili keyfiyyətlə yanaşı, şagirdlərin ixtisas seçimlərinə və cəmiyyətdə öz yerlərini tutmaları üçün düzgün qərar qəbul etmələrinə müsbət təsir göstərə bilər. Odur ki, elm, ali və orta ixtisas təhsili müəssisələrinin elmi dərəcəli əməkdaşlarının ayda bir dəfə ümumtəhsil məktəblərində nümunəvi dərs keçmələri tədrisdə yeni istiqamət kimi dəyərləndirilir”.***

Məzunu olduğum təhsil ocağında – Culfa şəhərindəki 2 nömrəli tam orta məktəbdə ayda bir dəfə yuxarı siniflərdə Azərbaycan dilindən və ədəbiyyatdan dərs apararkən “Naxçıvan Muxtar Respublikasının elm, ali və orta ixtisas təhsili müəssisələri ilə ümumtəhsil məktəbləri arasında əlaqələrin təşkili haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 14 mart 2015-ci il tarixli Sərəncamının böyük əhəmiyyətini daha yaxından və əyani şəkildə görmək imkanı qazandım. Məktəbin həm pedaqoji heyətinin, həm də şagirdlərinin nümunəvi dərslərə böyük maraq, diqqət və məsuliyyətlə yanaşmasını da qeyd etmək istərdim. Ulu diyarımızın bütün təhsil ocaqları kimi, həmin məktəbin də ən müasir standartlar səviyyəsində fəaliyyəti üçün yaradılmış hərtərəfli imkan, mükəmməl maddi-texniki və tədris bazası muxtar respublikamızda həyata keçirilən möhtəşəm təhsil siyasətinin parlaq təzahürüdür.

**Hüseyn HƏŞİMLİ**
*filologiya üzrə elmlər doktoru,*
*Əməkdar elm xadimi*



# Kənd təsərrüfatı ili

*Təcrübə sübut edir ki, elmi biliklərə əsaslanmaqla görülən hər iş gec-tez uğur qazanır. Kənd təsərrüfatı sahəsində əldə olunmuş biliklərin öyrənilərək yayılması, elmi nəticələrin arazi xüsusiyyətlərinə görə bitkiçilik və heyvandarlıqda tətbiq olunması yüksək məhsuldarlıq verməklə bərabər, gələcəkdə etibarlı ərzaq təminatı üçün də elmi baza yaradır. Muxtar respublikamızda fəaliyyət göstərən Akademik Həsən Əliyev adına "Araz" Elm-İstehsalat Birliyinin də fəaliyyəti məhz Naxçıvan Muxtar Respublikası əhalisinin il boyu yerli kənd təsərrüfatı məhsulları ilə təminatında elmin son nailiyyətlərinə əsaslanan becərmə texnologiyalarının tətbiqinə yönəlmişdir.*

## "Araz" Elm-İstehsalat Birliyi aqrar sahənin inkişafına öz töhfəsini verir

Əvvəlcə onu qeyd edək ki, Kompleks Zona Təcrübə Stansiyası kimi yaradılan bu müəssisə 1988-ci ildən "Araz" Elm-İstehsalat Birliyi kimi fəaliyyətini davam etdirir. 1997-ci ildə birliyə görkəmli ictimai xadim, təbiətşünas-alim, akademik Həsən Əliyevin adı verilmişdir.

Hazırda birliyin nəzdində 5 şöbə, Şərur, Ordubad dayaq məntəqələri, Şıxmahmud, Nehrəm sort sınaq məntəqələri və yardımçı təcrübə təsərrüfatı fəaliyyət göstərir. İstər şöbələrdə və məntəqələrdə, istərsə də yardımçı təcrübə təsərrüfatında Naxçıvan Muxtar Respublikasının rayonlarının torpaq-iqlim şəraitinə uyğun elmi-tədqiqat işləri davam etdirilməkdədir.

"Araz" Elm-İstehsalat Birliyinin baş direktoru Bəhruz Bayramovla söhbət zamanı bildirdi ki, burada bir çox istiqamətdə elmi tədqiqatlar aparılmaqdadır. Bunlardan muxtar respublikada yerli və gətirilmə süfrə üzümü sortlarının öyrənilməsi, onların genetik fondunun toplanılması, keyfiyyət göstəricilərinin artırılması yollarının tətbiqi və tingçiliyinin təşkili, Şərur rayonu şəraitində mineral gübrələr fonunda müxtəlif əkin müddətlərində mikrogübrələrin qarğıdalı bitkisinin, Culfa rayonu şəraitində üzvi gübrələr fonunda mineral gübrələrin texniki və süfrə üzümü sortlarının məhsuldarlığına və məhsulun keyfiyyətinə təsiri, muxtar respublikanın suvarılan boz torpaqlarında müxtəlif əkin müddətlərində və müxtəlif əkin sıxlığında kartof bitkisi sortlarının yeni səmərəli becərilmə texnologiyasının işlənib hazırlanması kimi mövzular maraq doğurur. Bu istiqamətlərdə aparılan elmi araşdırmaların gələcəkdə uğurlu nəticələr verəcəyi gözlənilir.

Birliyin yardımçı təcrübə təsərrüfatı Babək rayonunun Şıxmahmud kəndi ərazisində yerləşir. Təsərrüfatın 83,69 hektar torpaq sahəsi mövcuddur. Əkinəyararlı 72 hektar ərazidə müxtəlif kənd təsərrüfatı bitkiləri əkilərək elmi sınaqlardan keçirilir. Təsərrüfat həm də toxumçuluq istiqamətində formalaşmışdır. Burada taxılçılıq, kartofçuluq, bostançılıq, şəkər çuğunduru, yemçilik və sair bitkilər üzrə əkin texnologiyalarının tətbiqinə nail olunmuşdur. Muxtar respublikamızda kartofçuluğun inkişaf etdirilməsi üçün tez, orta və gecyetişən kartof toxumları gətirilərək yardımçı təcrübə təsərrüfatında və Şərur dayaq məntəqəsində sınaqdan keçirilmiş, əl əməyindən minimum istifadə olunmaqla kartofun yeni səmərəli becərmə texnologiyaları tətbiq olunmuş, muxtar respublikanın Arazboyu aran zonasında kartof bitkisinin yüksək məhsul verməsi elmi cəhətdən sübuta yetirilmişdir.

Birliyin elmi əməkdaşları bu günə kimi Azərbaycan Elmi-Tədqiqat Əkinçilik İnstitutunun və BMT-nin ərzaq təşkilatı olan FAO-nun yetişdirdiyi buğda və arpa sortlarını sınaqdan keçirərək bir neçə buğda və arpa sortunun rayonlaşdırılmasına nail olmuşlar. Akademik Cəlal Əliyevin rəhbərliyi altında yetişdirilən payızlıq buğda sortlarından "Qobustan", "Bərəkətli-95", "Nurlu-99", "Pərzivan", "Şiraslan", payızlıq arpa sortlarından isə "Qarabağ-22", "Cəlilabad-19" muxtar respublikanın iqlim-torpaq şəraitində daha uğurla sınaqdan keçmiş, birliyin yardımçı təcrübə təsərrüfatında artırılaraq fermer təsərrüfatlarına verilmişdir. Birliyin əməkdaşları tərəfindən "Kəhrəba" buğda, "İstiqlal" arpa, "Şərur" buğda sortları yaradılmış və istehsalata verilmişdir. Taxılçılıqda şırım üsulu ilə becərilmə texnologiyasının işlənib hazırlanması və tətbiqi ilk dəfə birliyin yardımçı təcrübə təsərrüfatında sınaqdan keçirilmiş, bu istiqamətdə dəfələrlə tarla seminar müşavirələri təşkil olunmuşdur. Artıq muxtar respublikanın hər yerində taxılçılar bu üsuldan istifadə edirlər. Birliyin əməkdaşları tərəfindən ötən dövr ərzində muxtar respublikanın rayon və kəndləri üzrə əkiləcək torpaqların illik gübrə tələbatları hesablanmış, rayon və şəhər icra hakimiyyəti orqanlarına göndərilmişdir.

"Araz" Elm-İstehsalat Birliyinin fəaliyyətinin genişləndirilməsinə mühüm dövlət dəstəyi göstərilir. Təkcə bir faktı qeyd etmək yerinə düşər ki, təqribən, 15 il bundan əvvəl birliyin bir ədəd belə istifadəyə yararlı şum traktoru yox idi. Göstərilən dövlət qayğısı sayəsində birliyin yardımçı təcrübə təsərrüfatının maddi-texniki bazası yaxşılaşdırılmışdır. Belə ki, indi burada 3 ədəd traktor, 2 ədəd toxumtəmizləyən vim aqreqat, 3 ədəd şum kotanı, 1 ədəd toxumsəpən, 1 ədəd kartofəkən, 1 ədəd kartofçıxaran və digər kənd təsərrüfatı texnikaları vardır. Bundan əlavə, xırman kompleksi inşa edilmiş, əraziyə asfalt yol çəkilmişdir ki, bunun da sayəsində biçilmiş taxılın vim aqreqatında çeşidlənməsi üçün əlverişli şərait yaradılmışdır.

2015-ci il ölkəmizdə və muxtar respublikamızda "Kənd təsərrüfatı ili" elan olunmuşdur. Bu mürəkkəb və vacib sahənin fəaliyyətinin genişləndirilməsi indi bütün aidiyyəti qurumlar üçün mühüm vəzifədir. "Araz" Elm-İstehsalat Birliyi də öz fəaliyyətini bu istiqamətdə qurur. Çünki elmə əsaslanan əkinçilik sistemi əhalinin ərzaq təminatında və məhsul bolluğu yaradılmasında hər zaman etibarlı sayılır.

✍ Əli CABBAROV

## "Naxçıvan bağları"nın məhsullarına tələbat artır

### Böyükdüz istixana kompleksində yeni layihə həyata keçirilib

*Özəl sektorun inkişafı daxili bazarın qorunmasında, idxaldan asılılığın aradan qaldırılmasında, əhalinin tələbatının yerli istehsal hesabına ödənilməsində əhəmiyyətli rola malikdir. "2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nda da özəl sektorun inkişafı əsas yer tutur. Bu məqsədlə davamlı tədbirlər həyata keçirilir, sahibkarlara dövlət maliyyə dəstəyi göstərilir, yeni meyvə bağları salınır, istixana kompleksləri yaradılır. "Naxçıvan bağları" istixana kompleksinin fəaliyyətə başlaması həyata keçirilən tədbirlərin davamıdır.*





Sahibkar Elçin Bağırov bizimlə söhbətində qeyd etdi ki, bu mühüm əhəmiyyətli sahənin inkişaf etdirilməsi üçün biznes-plan hazırlanıb Sahibkarlığa Kömək Fonduna təqdim edilmiş və fonddan 1 milyon 500 min manat güzəştli kredit ayrılmışdır. 2013-cü ilin mart ayında Naxçıvan şəhərində 10 min kvadratmetr, may ayında isə 1500 kvadratmetr sahəsi olan yeni istixana kompleksi fəaliyyətə başlamışdır. Burada Hollandiya və Türkiyə istehsalı olan müasir avadanlıqlar quraşdırılmış, anbarlar, qazanxana, yeməkxana və işçilər üçün otaqlar yaradılmış, istixana üçün yeni kənd təsərrüfatı texnikaları alınmışdır. Ümumilikdə, yeni istixana kompleksinin tikintisinə və müasir texnoloji avadanlıqların alınmasına 2 milyon 100 min manat vəsait sərf olunmuşdur ki, bunun 600 min manatı daxili imkanlar hesabına ödənilmişdir.

İstixana kompleksində Zirə, Tovuz sortu olan pomidor yetişdirilmiş və 7 kiloqramlıq karton taralarda topdansatış bazalarında, 250-500 qramlıq və 1 kiloqramlıq plastik taralarda isə pərakəndə satış mağazalarında Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsində qeydə alınmış "Naxçıvan bağları" əmtəə nişanı ilə satışa çıxarılmışdır. Bu, muxtar respublikamızda həmin məhsula olan tələbatın az bir hissəsini ödəyir.

Artan tələbatın ödənilməsi və istixana kompleksinin fəaliyyətinin genişləndirilməsi məqsədilə 2014-cü ilin yanvar ayında daha bir biznes-plan hazırlanıb Sahibkarlığa Kömək Fonduna təqdim olunmuşdur. Ümumi dəyəri 3 milyon 150 min manat məbləğində qiymətləndirilən layihənin reallaşması üçün 2 milyon 500 min manat dövlət maliyyə dəstəyi göstərilməsi, qalan 650 min manatın isə sahibkarın daxili imkanları hesabına ödənilməsi nəzərdə tutulmuşdur. 2014-cü ilin fevral ayında Sahibkarlığa Kömək Fondundan 2 milyon manat güzəştli kredit verilmiş və layihənin icrasına başlanılmışdır. Kəngərli rayonunun Böyükdüz kəndi ərazisində 45 min 620 kvadratmetr torpaq sahəsi ayrılmış, əraziyə "Qarabağlar" kəhrizindən 17 kilometr, Böyükdüz kəndi ərazisində yerləşən arteziandan isə 1,5 kilometr məsafədə su xətləri çəkilmiş, torpaq işləri görülmüş, transformator yarımstansiyası qoyulmuşdur.

Kompleksin daxilindəki ayrı-ayrı bölmələrdə ümumi uzunluğu 26 min 600 metr olan 80 santimetrdən 1 metrədək dərinlikdə drenaj xətləri çəkilmiş, xüsusi örtükləri olan süzgəcli borular salınıb mərkəzi xəttə birləşdirilmişdir. Bu da yay mövsümündə suvarma zamanı torpağın tərkibində olan artıq suyun axıdılmasına, şoranlaşmanın qarşısının alınmasına, qış mövsümündə isə xüsusi pompalarla drenaj xəttinə vurulan isti hava ilə şitillərin vegetasiya dövrünün normal keçməsinə imkan verir. İstixana kompleksində avtomatik rejimdə işləyən iqlim-nəzarət sistemləri, isitmə və havalandırma avadanlıqları quraşdırılmışdır. Türkiyənin "Alarko" şirkətindən alınmış 6 ədəd sobanın 3-ü təbii qazla, 3-ü isə həm təbii qaz, həm də dizel yanacağı ilə işləyir ki, bu da müəssisəni fasiləsiz istiliklə təmin edir. Hər birinin tutumu 225 ton olan 4 yerüstü qapalı hovuz quraşdırılmışdır. Bu, su xəttində hər hansı bir nasazlıq yaranarkən fasiləsiz su ilə təminatda mühüm rol oynayır. Burada su təchizatı mərkəzi idarəetmə sistemi ilə təmin olunmuş avadanlıqlar vasitəsilə aparılır. Su təmizləyici qurğudan keçdikdən sonra torpağın tərkibi haqqında laborator analizin cavablarına uyğun ayrı-ayrı çənlərdə hazırlanmış gübrələr suya əlavə olunmaqla istixanaya ötürülür və suvarma damcı üsulu ilə həyata keçirilir.

İstixana kompleksində toxumcücərtmə, şitilyetişdirmə, pomidor, xiyar, çiyələk, dibçək gül toxumları yetişdirilən ayrı-ayrı bölmələr və turşubağlama sahəsi yaradılmışdır. İllik istehsal gücü 1,2-1,5 milyon ədəd olan şitilyetişdirmə bölməsində istehsal olunan şitilin 250 min ədədi kompleksin tələbatını ödəyir, qalan hissəsi isə muxtar respublikamızda fəaliyyət göstərən digər istixana komplekslərinə və torpaq mülkiyyətçilərinə satılır. Toxumcücərtmə bölməsində tələbata uyğun olaraq, xüsusi qəliblərdə müxtəlif sort toxumlar cücərdilir. Çiyələkyetişdirmə bölməsində su kanalı ilə təchiz olunmuş novdanlarla üçmərtəbəli əkin sistemi quraşdırılmış, torpağa üzvi gübrə və torf qarışığı tökülərək əkin aparılmışdır. Turşubağlama sahəsində isə məhsuldarlıq dövrü başa çatan pomidor, xiyar kollarından toplanan yetişməmiş məhsullardan 200 kiloqramlıq taralarda turşu qoyulur və sonrakı mərhələdə 2, 3, 5 və 10 kiloqramlıq taralara qablaşdırılıb satışa çıxarılır. Kompleksdə istehsal olunan məhsullar xaricdən idxal olunan eyniadlı məhsullardan xeyli keyfiyyətlidir.

İstixanada müasir kənd təsərrüfatı texnikalarından istifadə, yeni texnologiyaların tətbiqi yüksək məhsuldarlığa nail olunmasında və əhalinin keyfiyyətli məhsullarla təminatında əhəmiyyətli rol oynayır. Kompleksdə becərmə tədbirlərində üzvi gübrələrdən istifadə edilir, pomidor və xiyar kollarının tozlanması xüsusi arı ailələri vasitəsilə aparılır. Bu da məhsuldarlığın təbii yolla artırılmasına, mövsümi ekoloji təmiz məhsul istehsalına imkan verir. Ekotester vasitəsilə məhsulun tərkibində olan radiasiya və nitratın (azot) müəyyən olunmuş normaya uyğunluğu mütəmadi olaraq nəzarətdə saxlanılır. İllik istehsal gücü min ton olan istixana kompleksinin fəaliyyətə başlaması qış aylarında daxili bazarın tərəvəz məhsullarına olan tələbatın yerli istehsal hesabına ödənilməsinə əlverişli şərait yaradır.

Artan tələbatın ödənilməsi üçün cari ildə istixana kompleksində 3 min kvadratmetr ərazidə çiyələkyetişdirmə sahəsinin yaradılmasına başlanılmış, istixana kompleksində daxili suvarma şəbəkəsi və ikipilləli novdanlar qurulmuşdur. Birinci pillədə yüksək müalicəvi əhəmiyyəti ilə seçilən, ürək-damar sisteminin xolesterindən təmizlənməsində, əsəb sisteminin sakitləşdirilməsində, mədə-bağırsaq sisteminin düzgün işləməsində, xərçəng, şəkər xəstəliyinin, həmçinin pəhriz saxlayanların müalicəsində mühüm rol oynayan brokoli, kahı və gülkələm, Türkiyənin "SBR" şirkəti ilə bağlanmış müqaviləyə əsasən, 48 min ədəd çiyələk şitili alınıb gətirilərək əkilmişdir. Yanvar ayında bazara çıxarılması nəzərdə tutulan məhsullar qış mövsümündə bu məhsullara olan tələbatın yerli istehsal hesabına ödənilməsinə imkan verəcək, eyniadlı məhsulun idxal olunmasının qarşısını alacaq.

Yay mövsümündə də daxili bazarın tərəvəz məhsulları ilə təmin olunması diqqət mərkəzində saxlanılmış, istixana kompleksinin ətrafında yerləşən 10 hektar sahə icarəyə götürülmüş və bu ərazidə pomidor, badımcan, bibər, qovun, qarpız əkilmişdir. Yetişdirilən məhsul kənd təsərrüfatı məhsullarının satışı yarmarkasında münasib qiymətə alıcılara satılmışdır. Həmçinin istixana kompleksində payız-qış mövsümünə hazırlıqla əlaqədar olaraq torpaq qüvvətləndirmə işləri görülmüş, dincə qoyulmuş torpaqlarda şitillər əkilib-becərilmişdir. Onu da qeyd edək ki, daxili bazarın tələbatına uyğun olaraq, istixana kompleksində cari ildə ilk dəfə olaraq 700 kvadratmetr sahədə badımcan, əsasən, Türkiyə, Hollandiya, İspaniya, İtaliyada yetişdirilən və 1 ədədinin çəkisi 25 qram olan Kerri pomidor sortu yetişdirilib sifarişə uyğun olaraq iaşə obyektlərinə göndərilir. Həyata keçirilən tədbirlər öz bəhrəsini vermiş, "Naxçıvan bağları" mövsümlə əlaqədar yetişdirilən ilk məhsulunu bazara çıxarmışdır.

***Böyükdüz istixana kompleksinin daxili bazarın yüksəkkeyfiyyətli tərəvəz məhsulları ilə təminatında, eləcə də əhalinin məşğulluğunda mühüm payı vardır. Burada 50 nəfər işlə təmin edilib ki, bu işçilərin də əksəriyyəti Böyükdüz kəndinin sakinləridir.***

✍ Kərəm HƏSƏNOV

## Müsabiqənin qalibləri mükafatlandırılıb

*17 noyabr – Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı Günü ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin birgə təşkilatçılığı ilə qadınlar arasında keçirilən "Milli dəyərimiz – vətənpərvərlik" mövzusunda III muxtar respublika rəsm və əl işləri müsabiqəsinin qalibləri mükafatlandırılmışlar.*

Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova, Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri Ülviyyə Həmzəyeva və Naxçıvan Qızlar Liseyinin direktoru, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Aidə Allahverdiyeva müsabiqə qaliblərini və tədbir iştirakçılarını 17 noyabr – Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı Günü münasibətilə təbrik etmişlər.

Bildirilmişdir ki, hər il istedadlı qadınların rəsm və əl işlərinin sərgiləri, sərgi-satışları, rəsm və əl işləri üzrə müxtəlif mövzularda müsabiqələri təşkil olunur, yeni gənc istedadlar üzə çıxarılır. "Milli dəyərimiz – vətənpərvərlik" mövzusunda III muxtar respublika rəsm və əl işləri müsabiqəsinin keçirilməsi incəsənətə, istedadlı qadınlara və bu sahədə özünü kəşf etməyə ilk addımını atmış gənc qadınlara göstərilən dövlət dəstəyinin davamıdır.

Vurğulanmışdır ki, müsabiqəyə 50 qadın 61 rəsm və əl işi təqdim etmişdir. Müsabiqə iştirakçıları dövlət atributlarımızdan olan üçrəngli bayrağımızın rəsm əsərlərində və əl işlərində gözəl nümunələrini yaratmışlar.

Tədbirdə Naxçıvan Qızlar Liseyinin tarix müəllimi Gülşən Ağayeva çıxış edərək Dövlət Bayrağının tarixi ilə bağlı ətraflı məlumat vermişdir.

Sonra "Milli dəyərimiz – vətənpərvərlik" mövzusunda qadınlar arasında keçirilən III muxtar respublika rəsm və əl işləri müsabiqəsinin qalibləri və həvəsləndirici yerlərə layiq görülənlər diplom və hədiyyələrlə mükafatlandırılmışlar.

Sonda tədbir iştirakçıları müsabiqəyə təqdim olunan rəsm və əl işlərinin sərgisinə baxmışlar.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Sertifikasiya imtahanında müsahibə mərhələsi keçirilib

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi praktik tibb və əczaçılıq fəaliyyəti ilə məşğul olan şəxslərin peşəkarlıq səviyyəsini yoxlamaq məqsədilə keçirdiyi sertifikasiya imtahanlarını davam etdirir. Məlum olduğu kimi, bu işə 2011-ci ilin sentyabr ayından başlanmış və təkcə cari ilin ötən dövründə 381 nəfər test imtahanlarında, 284 nəfər isə müsahibələrdə iştirak etmiş, 38 həkim, 266 orta tibb işçisi növbəti beş il üçün sertifikat almışdır.

Noyabrın 16-da sertifikasiya imtahanının növbəti müsahibə mərhələsi keçirilmişdir. Bu mərhələdə Naxçıvan Muxtar Respublika Xəstəxanası və Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının tibb bacıları bilikləri sınamışlar.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyində keçirilən müsahibə turunda tibb bacılarına öz ixtisaslarına aid nəzəri, habelə onların bilik səviyyəsini və peşə vərdişini müəyyən edən praktik suallar verilmişdir.

Müsahibələr açıq, hər bir orta tibb işçisi ilə fərdi qaydada 30 dəqiqə müddətində aparılmışdır. Azərbaycan Respublikası Tələbə Qəbulu üzrə Dövlət Komissiyası Naxçıvan Muxtar Respublikası Regional Bölməsi əməkdaşının iştirakı ilə keçirilən müsahibənin şəffaflığı təmin edilmişdir.

Müsahibədən sonra imtahan komissiyasının üzvləri verilmiş cavabları müzakirə edərək ümumi rəy əsasında müsahibənin nəticələrini elan etmişlər. İmtahanda iştirak etmiş 28 nəfərin hamısı sertifikasiya imtahanını uğurla başa vurmuşdur. İmtahanların şəffaf, tam obyektiv şəraitdə keçirilməsi tibb işçilərinin hazırlığına öz müsbət təsirini göstərdiyindən uğur qazananların sayı get-gedə artır. Zəruri həddi keçə bilməyənlər isə 6 ay ərzində təkmilləşdirmə kursu keçərək yenidən öz biliklərini sınayırlar.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Beynəlxalq Tələbə-Gənclər Həftəsinə yekun vurulub



***10-17 noyabr – Beynəlxalq Tələbə-Gənclər Həftəsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında keçirilən tədbirlərə yekun vurulub.***

Noyabrın 17-də Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu və Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə keçirilən yarışların qaliblərinin mükafatlandırılması mərasimi olub.

Naxçıvan şəhərindəki "Gənclik" Mərkəzində keçirilən tədbirdə ilk olaraq Beynəlxalq Tələbə-Gənclər Həftəsi ilə bağlı məlumat verilib.

Sonra ötən həftə ərzində keçirilən yarış, müsabiqə və oyunların qaliblərinə mükafatlar təqdim edilib.

Tədbirdə Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsi tələbələrinin ifasında mahnılar səsləndirilib.

Qeyd edək ki, Beynəlxalq Tələbə-Gənclər Həftəsində badminton, şahmat idman növləri üzrə yarışlar, həmçinin şən və hazırcavablar klubları arasında müsabiqə və "Nuh yurdu" intellektual oyunu təşkil olunub.

**Xəbərlər şöbəsi**

## Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:** Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasına gəlməsi və Azərbaycan Respublikasından getməsi qaydası necə müəyyənləşdirilir?*

***Cavab:*** Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər dövlət sərhədinin buraxılış məntəqələrindən keçmək şərti ilə, pasportları və ya digər sərhədkeçmə sənədləri əsasında Azərbaycan Respublikasına gələ və Azərbaycan Respublikasından gedə bilərlər. Azərbaycan Respublikasına gəlmək üçün viza tələb olunduğu hallarda əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi ilə müəyyən olunmuş qaydada viza almalıdırlar.

Xarici dövlətlərlə müvafiq beynəlxalq müqavilələr bağlanmış olduğu hallarda, habelə Azərbaycan Respublikası Prezidenti tərəfindən müəyyən edilmiş hallarda əcnəbilər və vətəndaşlığı olmayan şəxslər ölkəmizə vizasız qaydada gələ bilərlər.

Azərbaycan Respublikasında müvəqqəti və ya daimi yaşamaq üçün icazə almış əcnəbilər və vətəndaşlığı olmayan şəxslər pasportları və ya digər sərhədkeçmə sənədləri və Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən verilmiş müvəqqəti və ya daimi yaşamaq üçün icazə vəsiqələri əsasında Azərbaycan Respublikasından gedə və viza almadan qayıda bilərlər.

Azərbaycan Respublikasında qaçqın statusu almış əcnəbilər və vətəndaşlığı olmayan şəxslər onlara ölkəmizin hüdudlarından kənara getmək üçün verilən "Yol sənədi" əsasında Azərbaycan Respublikasından gedə və viza almadan gələ bilərlər.

Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarılan və sərhədkeçmə sənədləri olmayan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının beynəlxalq müqavilələrində nəzərdə tutulmuş hallarda, habelə həmin şəxslər üçün mənşə ölkələrindən sərhədkeçmə sənədləri əldə etmək mümkün olmadığı hallarda verilən "səyahət sənədi" onların ölkə hüdudlarından kənara çıxması üçün əsasdır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin Miqrasiya proseslərinin təhlili və informasiya təminatı şöbəsi***

## İdman

*Muxtar respublika gömrük orqanları arasında Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin yaradılmasının 24-cü ildönümünə həsr olunan futzal turniri keçirilib.*

## Gömrükçülərin futzal turniri başa çatıb

Ənənəvi turnirdə 8 komanda iki yarımqrupda mübarizə aparıb. Yarış Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində keçirilib.

Yarımqruplarda keçirilən oyunlardan sonra ilk iki pillədə qərarlaşan komandalar növbəti mərhələyə adlayıblar. Yarımfinal qarşılaşmalarında "Mühafizə xidməti" "Hava Nəqliyyatında Gömrük İdarəsi"ni, "Komitə" isə "Sədərək" komandasını məğlub edərək həlledici oyuna vəsiqəni təmin ediblər.

Final qarşılaşmasından öncə keçirilmiş üçüncülük uğrunda oyunda Sədərək Gömrük İdarəsinin futzalçıları seviniblər: 8:5.

Final matçı mühafizəçilər üçün heç də yaxşı başlamayıb. Oyunun 7-ci dəqiqəsində Vüqar Qurbanovun dubl etməsi rəqib futzalçıları çaşbaş salsa da, mühafizəçilər tezliklə toparlana biliblər. İlk hissə "Mühafizə xidməti"nin 3:2 hesablı qələbəsi ilə yekunlaşıb. Fiziki güc və texniki üstünlük ikinci hissədə də öz sözünü deyib. Daha beş qol vuran mühafizəçilər ayrıca komanda şəklində qatıldıqları ilk yarışda çempion olublar: 8:3. Bu oyunda het-trik edən Polad Həsənli yarış ərzində vurduğu qolların sayını 15-ə çatdıraraq turnirin ən sərrast oyunçusu olub.

Komandaların mükafatlandırılması mərasimində çıxış edən Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Asəf Məmmədov ölkəmizdə, o cümlədən muxtar respublikamızda idmanın inkişafına və kütləviliyinin artırılmasına göstərilən yüksək dövlət qayğısından danışıb. Gömrükçülər arasında idmanı təbliğ etmək, onların fiziki sağlamlığının qayğısına qalmaq məqsədilə keçirilən yarışların ənənəvi xarakter aldığını qeyd edən komitə sədri idmanın gömrük əməkdaşları arasında qarşılıqlı münasibətlərin inkişafına müsbət təsir göstərdiyini, onlarda qələbəyə inam, mübarizlik hislərini artırdığını bildirib.

Sonra komandaların və turnirdə fərqlənən idmançıların mükafatlandırılması mərasimi olub. "Mühafizə xidməti" komandası turnirin keçici kuboku ilə yanaşı, kubok, diplom və medallarla təltif olunub. Turnirin "Ən yaxşı qapıçı"sı, "Ən yaxşı müdafiəçi"si, "Ən məhsuldar oyunçu"su, "Ən yaxşı məşqçi"si, o cümlədən oyunları idarə edən hakimlər də mükafatlandırılıblar.

## Gömrükçülər arasında peyntbol yarışı

Gömrükçülərin fiziki sağlamlığını qorumaq, hərbi-vətənpərvərlik ruhunu gücləndirmək, silahdan atış vərdişlərini təkmilləşdirmək, asudə vaxtın səmərəli təşkilinə nail olmaq və bu növdə ən güclü idmançıları müəyyənləşdirmək məqsədilə keçirilən yarış Naxçıvan Muxtar Respublikası Atıcılıq Mərkəzinin peyntbol meydançasında təşkil olunub. Yarışda səkkiz komanda iki yarımqrupda mübarizə aparıb.

Həlledici qarşılaşmada Naxçıvan Hava Nəqliyyatında Gömrük İdarəsinin komandası Sədərək Gömrük İdarəsinin komandasını məğlub edərək yarışın qalibi olub. Üçüncülük uğrunda keçirilən oyunda isə Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin idmançıları "Mühafizə xidməti"ni üstələyib.

Qadın gömrükçülər arasında ilk dəfə keçirilən peyntbol yarışında isə "Komitə" komandası "Culfa Gömrük İdarəsi"ni məğlub edərək qalib olub. Qadın gömrükçülər atıcılığın stend növündə də qüvvələrini sınayıblar.

Komandaların mükafatlandırılması mərasimində çıxış edən Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin sədri Asəf Məmmədov atıcılıq idman növünün, o cümlədən peyntbol hərbi-idman oyununun əhəmiyyətindən danışıb. Belə tədbirlərin gömrükçülərin hərbi-vətənpərvərlik ruhunun gücləndirilməsi baxımından önəmli olduğunu bildirən komitə sədri belə yarışların gələcəkdə də davamlı olaraq keçiriləcəyini qeyd edib.

Qaliblər diplom və qiymətli hədiyyələrlə mükafatlandırılıblar.

***Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin mətbuat xidməti***

## Futbol üzrə muxtar respublika çempionatı davam edir

*Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Futbol Federasiyasının birgə təşkil etdiyi futbol üzrə muxtar respublika çempionatının 7-ci turuna yekun vurulub.*

Mövsümün açılış oyununda ötən ilin çempionu "Araz-Naxçıvan" muxtar respublika çempionatında ilk dəfə məğlubiyyətlə üzləşib. Belə ki, Naxçıvan Dövlət Universiteti komandasının qonağı olan "qırmızı-ağlar" ilk görüşdə meydanı məyus tərk ediblər – 2:1. Bundan sonra keçirdiyi bütün görüşlərdə qalib gələn "Araz-Naxçıvan" hazırda turnir cədvəlinin ikinci pilləsində qərarlaşıb.

Cari mövsümdə meydana çıxdığı bütün qarşılaşmaları qələbə ilə başa vuran "DİN-Darıdağ" komandası turnir cədvəlinə başçılıq edir. Onlar son turda "Əlincə" komandasını üstələyərək 21-ci xallarını qazanıblar. Ümumiyyətlə, cari çempionatda bu komandanın baxımlı oyunu diqqətdən yayınmır. İndi ilk dövrənin son matçında onları daha çətin sınaq gözləyir. "Araz-Naxçıvan"la keçiriləcək görüş liderin dəyişməsinə səbəb ola bilər. Naxçıvan Dövlət Universiteti komandası isə meydana çıxdığı 7 görüşdə 2 dəfə məğlub olub. Bu üç komanda cari mövsümdə heç-heçə ilə üzləşməyib.

Ötən illərdə olduğu kimi, cari mövsümün də autsayderləri yenə "Kəngərli" və "Sədərək" komandalarıdır. Düzdür, Kəngərli rayonunun təmsilçiləri bir dəfə üç xal qazanmağa müvəffəq olublar. Lakin onların bu gedişlə üst pillələrə qalxması inandırıcı görünmür. "Batabat" və "Babək" komandaları arasında keçiriləcək görüş isə təxirə salınıb. Bu matçda babəklilər qalib gələcəyi təqdirdə, turnir cədvəlində iki pillə irəliləməyə müvəffəq olacaqlar.

| S | Komandalar | O | Q | H | M | T/F | X |
|---|---|---|---|---|---|---|---|
| 1. | DİN-Darıdağ | 7 | 7 | 0 | 0 | 33-9 | 21 |
| 2. | Araz-Naxçıvan | 7 | 6 | 0 | 1 | 23-4 | 18 |
| 3. | NDU | 7 | 5 | 0 | 2 | 16-8 | 15 |
| 4. | Arpaçay | 7 | 4 | 1 | 2 | 17-14 | 13 |
| 5. | Əlincə | 7 | 3 | 0 | 4 | 9-16 | 9 |
| 6. | Batabat | 6 | 3 | 0 | 3 | 14-14 | 9 |
| 7. | Babək | 6 | 2 | 2 | 2 | 10-15 | 8 |
| 8. | Dübəndi | 7 | 1 | 1 | 5 | 10-23 | 4 |
| 9. | Kəngərli | 7 | 1 | 0 | 6 | 8-19 | 3 |
| 10. | Sədərək | 7 | 0 | 0 | 7 | 5-24 | 0 |

**Ceyhun MƏMMƏDOV**


ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Hüseynov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 870